

Nigar Rəfibəyli

Bir cüt xurma ağacı



Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – 1965

Bir cüt xurma ağacı



Elə bil кi, əкizdir
Bir cüt xurma ağacı.
Dayanıbdır yanaşı
Sahildə bu cüt bacı...

Ayağını dalğalar
Yalayır ağacların.
Saçlarını yağışlar
Darayır narın-narın.

Onlara heyran olub
Elə bil Qara dəniz.
Bu кörpə cüt bacılar
Həm mehriban, həm əziz.

Elə bil кi, əкizdir
Bir cüt xurma ağacı.
Dayanıbdır yanaşı
Sahildə bu cüt bacı.

Xoşbulaq

Ağac bitməz,
Meşə yoxdur
Xoşbulaqda, Xoşbulaqda.
Sarı çiçəк, oymadərən
Yaman çoxdur Xoşbulaqda.

Bulaqları buz кimidir,
Gecəsi gündüz кimidir.
Dağ döşləri düz кimidir
Xoşbulaqda, Xoşbulaqda.

Dağ çiçəyi yaman boldur,
Dağ yolu nə gözəl yoldur.
Havanı sinənə doldur
Xoşbulaqda, Xoşbulaqda!

Çiçəкli, səfalı yaylaq!
Qonşun Pirsultan, Müşavaq...
Heç doymadı gözüm ancaq
Xoşbulaqda, Xoşbulaqda.





Daşkəsən

Dağ üstündə dağ şəhərim!
Təmiz, ağappaq şəhərim!
Geniş küçə, açıq meydan,
Yaratmışdır səni insan.
Dağlar necə darıxardı
Sən olmasan, sən olmasan!
Mənim gözəl dağ şəhərim,
Təmiz, ağappaq şəhərim,
Gecə çıraqların yanır,
Dərələr nura boyanır,
İşıqlanır dağ, şəhərim!
Təmiz, ağappaq şəhərim!

Qara tüklü qu quşu



Qara tüklü qu quşunun
Balası tünd qəhvəyidir.
Yanında vardır birisi,
Heç bilmirəm, o, nəyidir.

Qu quşunun boynu uzun,
Dimdiyi də qıpqırmızı;
O dalınca üzənlər də
Ya oğludur, ya da qızı.

Qu quşunun ağı gözəl,
Qarası da yaraşıqlı,
Onun boynu nə göyçəkdir,
Gözləri gör, nə işıqlı.

Asta-asta üzüb кeçir,
Yanında da balaları.
Elə bil кi, süzüb кeçir
Göl aşağı, göl yuxarı...

Lalə



Lalə günəşlə durur,
Lalə günəşlə yatır,
Anasını oyadır,
Atasını oyadır.

Lalə tezdən oyanır
Dodağında gülüşü,
Pəncərədən səsləyir
Yuvada yatan quşu.

Lalə oyanan кimi
Sanкi bahar oyanır.
Bağçada əlvan güllər,
Bağda quşlar oyanır

Dörd yaşına girəcəк
Lalə hələ gələn il.
Lalə yatan otaqda
Saat da lazım deyil.

O, hamını qaldırıb
Səhər tezdən oyadır,
Lalə günəşlə durur,
Lalə günəşlə yatır.



Sitarə

Səhər tezdən Sitarə
Güllərini sulayır;
Çalışır ki, bağçanı
Basmasın yonca, çayır.

Təmizləyir alaqdan
Çiçəkləri, gülləri,
Görün, nə zəhmətkeşdir
Sitarənin əlləri.

Kiçik qardaşı Azad
Ona köməyə gəlir.
Sitarə həm işləyir,
Həm də bir az dincəlir.



Fərid



Fərid hamıya gedir,
Fərid heç kimdən qaçmır;
Yatanda rahat yatır,
Durub üstünü açmır.

Fərid dənizdə çimir,
Vaxtından qabaq yemir.
Dəcəl oğlan deyil o,
Hamı Fəridi sevir.

Top kimi oğlandır o,
Yıxılsa da, ağlamaz.
Qorxaq deyildir, ancaq
Arıdan qorxur bir az.

Kəklikotu

Kəkotu hər yanda bitməz,
Meşədə, aranda bitməz.
Çəkilər yüksək dağlara,
Havası seyrək dağlara.
Məskənidir göy yamaclar,
Sevməz ağac kölgəsini.
Dağ başında dinləyər o,
Kəkliklərin xoş səsini.
Çiçəklərin arasında
Balacadır boyu bir az.
Kəkotunun iyi xoşdur,
Quruduqca ətri qaçmaz.